ISSN:2148-2292.


# NURÇULUĞUN TARİXİ, MÜASİR DURUMU VƏ İNKİŞAF MƏRHƏLƏLƏRİ

*Ceyhun Məmmədov*[1]

## XÜLASE

Məqalədə Nurçuluğun tarixindən, müasir durumundan, onu digər islam cərəyanlarından fərqləndirən əsas xüsusiyyətlərdən geniş bəhs olunur. Cərəyanın XX əsrin əllinci illərində Türkiyədə meydana gəldiyi, qısa bir zamanda geniş coğrafi əraziləri əhatə etdiyi bildirilir. Eyni zamanda cərəyanın təsisçisi Səid Nursi və onun davamçısı Fətullah Gülənin həyatı, elmi fəaliyyəti və əsərləri barədə ətraflı məlumat verilir. Daha sonra bu fikir cərəyanınınkeçmiş sovet respublikalarında yayılması tarixindən və müasir durumundan söhbət açılır. Nurçuluğun Sovet Hakimiyyətinin dağıldığı ilk günlərdən bu ərazilərdə yayıldığı qeyd olunur. Məqalənin sonunda nurçuluğun Azərbaycanda müasir durumundan bəhs olunur.

**Açar sözlər:** tarix, cərəyan, təhsil, durum

---

[1] *İlahiyyat üzrə fəlsəfə doktoru, AMEA akademik Z. Bünyadov adına Şərqşünaslıq İnstitutu*

ISSN:2148-2292.


# Нурсизм в Азербайджане: история и современное состояние

***Джейхун Мамедов***

## Резюме

В статье подробно повествуется об истории, современном состоянии нурсизм, об основных особенностях, которые отличают его от других течений ислама. Сообщается, что течение возникло в пятидесятых годах XX века в Турции и за короткое время охватило обширные географические территории. В тоже время представляется подробная информация о жизни, научной деятельности и сочинениях учредителя течения Саида Нурси и его преемника Фатуллаха Гюлена. Затем говорится об истории распространения этого идейного течения в бывших советских республиках и о его современном состоянии. Отмечается, что с первых дней распада советской власти течение нурсизм было распространено на этих территориях. В заключении статьи говорится о современном состоянии нурсизм в Азербайджане.

**Ключевые слова:** история, течение, образование, состояние,

ISSN:2148-2292.


# GİRİŞ

Sovet ittifaqı dağıldıqdan sonra Azərbaycanda, eləcə də digər keçmiş sovet respublikalarında aktiv dini təbliğat aparan, qısa zaman kəsiyində əhatə dairəsini genişləndirməyə, ətrafına çoxlu sayda insan birləşdirməyə nail olan İslam fikir cərəyanlarından biri də nurçuluqdur. Qısa müddətdə Rusiyanın müsəlmanların sıx yaşadığı bölgələrində, Orta Asiya Respublikalarında və Azərbaycanda həmin cərəyana aid olduğu bildirilən orta məktəblər, hazırlıq kursları, universitetlər, ictimai təşkilat və mətbu orqanlar fəaliyyətə başladı.

Nurçuluğun sürətlə yayılmasını və ardıcıllarının sayının artmasını öz ölkəsi üçün potensial təhlükə hesab edən bir sıra keçmiş sovet respublikaları, xüsusilə Özbəkistan və Rusiya bir müddətdən sonra bu təlimin fəaliyyətinə müəyyən məhdudiyyət və qadağalar tətbiq etdi. Həmin cərəyana məxsus olduğu bildirilən təhsil müəssisələrinin, kursların, ictimai təşkilatların və mətbu orqanların fəaliyyəti dayandırıldı.

## a-Nurçuluğun tarixi

Nurçuluq təlimi XX əsrin əllinci illərində Türkiyədə meydana gəlmişdir. Onun banisi Səid Nursi 1873-cü ildə Bitlis vilayətinin Nurs kəndində anadan olmuşdur[2]. O, dini biliklərini artırmaq məqsədilə Türkiyənin müxtəlif şəhərlərinə, eyni zamanda İraq və Suriya ərazilərinə davamlı səfərlər etmiş, həmin bölgələrin din alimləri ilə görüşlər keçirmiş, o dövrdə İslam dünyasında cərəyan edən hadisələr, mürəkkəb ictimai-siyasi proseslər barədə fikir mübadiləsi aparmış və böhrandan çıxış yollarını müzakirə etmişdır. O dövrdə müsəlmanların yaşadıqları bölgələrdə baş verən tənəzzül, siyasi hadisələr və qarşıdurmalar Səid Nursini ciddi narahat edirdi. O, bu problemləri aradan qaldırmaq üçün müsəlmanlar arasında vəhdət və birlik yaratmağa çalışırdı.

Səid Nursi gənclik illərindən Platonun fəlsəfəsini, İbn Sinanın, Əbdülqadir Ceylaninin, Cəlaləddin Ruminin və sufiliyin nəqşbəndilik təriqətinin banisi Bəhaəddin Nəqşbəndinin elmi irsini öyrənmiş və onların əsərləri onun bir alim kimi yetişməsində mühüm rol oynamışdır. Səid

[2] *Məmmədova, Kəmalə, Nurçuluq: tarixi və müasir durumu, Əbilov, Zeynalov və oğulları, 2003, Bakı, s:54.*

ISSN:2148-2292.


Nursinin ən böyük əsəri 33 risalədən ibarət məktubat kitabı sayılı[3]. Buraya onun "Sözlər", "Ləmalar", "Suallar" və digər əsas əsərləri daxildir. Bu əsərlər Qurandan başqa heç bir kitaba müraciət edilmədən yazılmışdır. Səid Nursi əsərlərini əvvəlcə ərəb dilində yazmış, sonra tələbələri onların üzünü köçürmüş və bu şəkildə həmin əsərlərin nüsxələri artırılmışdır[4].

Həm dini biliyinə, həmdə siyasi mövqeyinə görə insanlar arasında böyük nüfuz qazanmağa başlayan Səid Nursi müəyyən vaxtdan sonra öz ətrafına xeyli sayda insanı toplamağa müvəffəq olmuş, həmin dövrün ictimai-siyasi proseslərinin aktiv iştirakçısına çevrilmiş, hakimiyyətin həyata keçirdiyi siyasəti sərt tənqid etmiş, dövlətin dünyəvilik prinsipi ilə idarə olunmasına qarşı çıxmış və bu səbəbdən daim təqiblərə məruz qalmış, ömrünün bir hissəsini sürgündə və həbsxanalarda keçirmişdir.

Eyni zamanda o, 1908-ci ildə "İttihadi-Məhəmmədi" (Məhəmməd birliyi) cəmiyyətini yaratmış, I Dünya müharibəsi zamanı Van uğrunda gedən döyüşlərdə iştirak etmiş, ruslara əsir düşərək iki il Kastromada qalmış, sonra Peterburqa, oradan da Varşavaya keçmiş və 1918-ci ildə İstanbula qayıdaraq "Dərul-hikmətil-islamiyyə" təşkilatının üzvü olmuşdur. Bu cəmiyyət o zaman Mehmet Akif, İzmirli İsmail Haqqı və Elmalılı Həmdi kimi alimlərdən ibarət İslam Akademiyası funksiyasını daşıyırdı.

İstiqlal savaşını xilafət uğrunda mübarizə kimi qəbul edən Səid Nursi 1923-cü ildə Ankaraya gedərək Böyük Millət Məclisində çıxış etmiş və Atatürklə görüşmüşdür. Lakin o, millət vəkillərinin İslam şəriətinə qarşı olması qənaətinə gəlmiş və bu səbəbdən Ankaranı tərk edərək Van'a qayıtmışdır. Həmin vaxtdan ictimai-siyasi həyatdan uzaqlaşaraq Erek dağı ətrafında bir mağarada yaşamışdır.

1943-cü ildə hakimiyyət qüvvələri onu Dənizli şəhərində yenidən həbs etmiş, məhkəmənin qərarına əsasən o doqquz ay həbsdə qalmış və bu müddətdə o yeni əsərlər üzərində işləmişdir. 1944-cü ildə həbsdən azad olunan və Afyon şəhərinə sürgün edilən Səid Nursi dini baxışlarına görə 1948-ci ildə yenidən həbs olunmuş, 1949-cu ildə həbsdən azad olduqdan sonra Əmirdağ bölgəsinə getmişdir[5].

1950-ci ildə Türkiyədə Demokratik Partiyanın hakimiyyətə gəlməsi ilə ona edilən təzyiqlər nisbətən azalmışdır. O həbsdən azad olunsa da, məhkəmənin "Risaleyi-nur" əsərlərinin müsadirə olunması barədə qərarı 1956-cı ilə kimi qüvvədə saxlanılmışdır[6].

---

[3] *Гасанова, Э.Ю, Социология Религии и мусульманского мистицизма – тасаввуфа в Турции XX в., Əli nəşriyyat evi, 2006, Баку, s:186.*
[4] *Məmmədova, Kəmalə, Nurçuluq: tarixi və müasir durumu, Əbilov, Zeynalov və oğulları, 2003, Bakı, s:68.*
[5] *Məmmədova, Kəmalə, Nurçuluq: tarixi və müasir durumu, Əbilov, Zeynalov və oğulları, 2003, Bakı, s:66.*
[6] *İskəndərli, Cabir, Azərbaycanda qeyri-ənənəvi dinlər və təriqətlər, Apostroff, 2011, Bakı, s:44.*

Səid Nursinin vəfatından sonra bütün təqiblərə baxmayaraq nurçuluq zəifləməmiş, əksinə, daha da güclənmiş, yeni forma və məzmun kəsb etmişdir [7].

Nurçuluq təliminin adı ilə bağlı tədqiqatçılar arasında fikir ayrılığı mövcuddur. Bir qisim alimlər "nurçuluq" məfhumunu onun banisi Səid Kürdinin Bitlisin Nurs qəsəbəsində dünyaya gəlməsi və öz adına əlavə olaraq Nursi nisbəsini götürməsi ilə əlaqələndirirlər [8]. Türkiyəli tədqiqatçı Əbdülbaqi Gölpinarlı isə nurçuluğun mənşəyini Qurani-Kərimin "Nur" surəsinin 35-ci ayəsindəki "nur" (işıq) sözü ilə əlaqələndirir[9].

Nurçuluq təlimi əsas ideyalarını Səid Nursinin "Risaleyi-Nur" külliyatından götürür. Nurçular bu əsərlərin öyrənilməsinə böyük əhəmiyyət verirlər. Bu kitablarda Quran ayələri, İslamda iman, tövhid, axirət, cənnət, cəhənnəm və möcüzə anlayışları geniş şərh edilir, müsəlmanlara Allahı sevmək, ona təvəkkül etmək, səbirli və dözümlü olmaq təlqin olunur. Eyni zamanda Türkiyə cəmiyyətinin mənəvi həyatı xarakterizə edilir, bu sahədə ortaya çıxan problemlər təhlil edilir.

Müasir dövrdə Səid Nursinin əsərləri dünyanın müxtəlif bölgələrində rus, ingilis, alman, fransız, ərəb və digər dillərdə böyük tirajla nəşr olunaraq insanlar arasında yayılır. Bu gün nurçuluq Türkiyədə və onun hüdudlarından kənarda güclü sosial bazaya malik, dünyanın bir çox ölkələrində yüz minlərlə ardıcılı olan və sayı dünyanın hər yerində günü-gündən artan cərəyana çevrilmişdir.

Hazırda nurçuluğun əsas qoluna Türkiyədə və onun hüdudlarından kənarda kifayət qədər tanınmış, Türkiyəyə qayıtmasına icazə verilməyən və Amerika Birləşmiş Ştatlarında məskunlaşan Fətulla Gülən rəhbərlik edir. O, 1938-ci ildə Ərzurumun Alvar kəndində, yoxsul və dindar bir ailədə dünyaya gəlmiş, uşaq yaşlarından günlərini təkkə və zaviyələrdə keçirmiş, ilk təhsilini mədrəsədə almışdır. Fətulla Gülən öz şəxsiyyəti ətrafında demokratik insan, təsirli və elmli İslam alimi fikrini yaratmış, II Papa İohan Pavellə görüşmüş, təkcə Türkiyədə deyil, bütün dünyada müsəlmanları idarə etməkdə maraqlı olduğunu gizlətməmişdir[10].

Fətulla Gülənin bu hərəkata rəhbərliyi dövründə nurçuluq dünyanın müxtəlif bölgələrində, SSRİ dağıldıqdan sonra isə keçmiş sovet respublikalarında real gücə çevrilmişdir. Bəzi iddialara görə nurçuların Türkiyədə 218 şirkəti, 129 yataqxanası, 500 internet tipli məktəbi, 250.000 tirajı olan 17 mətbu orqanı, bir neçə televiziya kanalı və iki radiosu fəaliyyət göstərir. Eyni zamanda bu cərəyanın xaricdə 35 ölkədə 6 universitetinin, 236 liseyinin, 2 ibtidai məktəbinin, 8 xarici dil

---

[7] *Məmmədova, Kəmalə, Nurçuluq: tarixi və müasir durumu, Əbilov, Zeynalov və oğulları, 2003, Bakı, s:99.*
[8] *Məmmədova, Kəmalə, Nurçuluq: tarixi və müasir durumu, Əbilov, Zeynalov və oğulları, 2003, Bakı, s:74.*
[9] *Abdulbaki, Gölpinarlı, 100 soruda Türkiyede mezhebler ve tarikatlar, 1991, Kum, s:229-230.*
[10] *İskəndərli, Cabir, Azərbaycanda qeyri-ənənəvi dinlər və təriqətlər, Apostroff, 2011, Bakı, s:49.*

ISSN:2148-2292.


və kompüter, 6 hazırlıq kurslarının, 21 internat məktəbinin olduğu bildirilir[11]. Digər bir mənbədə isə Nurçuların 88 fonda, 20 cəmiyyətə və 128 orta məktəbə sahib olduqları iddia olunur[12].

Türkiyədə nurçuların fəaliyyətinə qadağa qoyulması ilə bağlı dəfələrlə məhkəmələrdə cinayət işi qaldırılmış, ancaq sonda məhkəmə onların fəaliyyətində qanuna zidd heç bir əməlin olmaması barədə qərar çıxarmışdır.

Nurçulara qarşı həyata keçirilən bütün tədbirlərə baxmayaraq bu cərəyan yenə də dünyanın bir çox ölkələrində fəaliyyətini davam etdirir. Hazırda bu hərəkatın rəhbəri Amerikada yaşasa da Türkiyədəki ardıcıllarının fəaliyyətini daim nəzarətdə saxlamağa və onlara müvafiq göstərişlər verməyə davam edir.

### b-Nurçuluğu digər cərəyanlardan fərqləndirən əsas xüsusiyyətlər

Nurçuluqla bağlı tədqiqat aparan alimlər təşkilatlanma və düşüncə tərzi baxımından bu təlimlə digər İslam cərəyanları arasında bir sıra oxşar və fərqli cəhətlərin olduğu qənaətindədirlər. Bir qisim tədqiqatçı bu cərəyan ilə sufilik arasında müəyyən oxşarlıqların mövcudluğu, ancaq nurçuluğu tamamilə sufiliyin bir qolu kimi dəyərləndirməyin düzgün olmadığı fikrindədir. Digər bir qism isə nurçuluğun sufi nəqşbəndiyyə təriqəti ilə bağlı olduğunu bildirir. Məsələn, İslam məzhəbləri və sufi təriqətləri tarixçisi Əbdülbaqi Gölpinarlı Səid Nursinin nəqşbəndiyyə təriqətindən bəhrələndiyini, onun bir təriqət adamı, yolunun bir təriqət olduğunu, əsərlərinin bu təriqəti yaymaq məqsədi güddüyünü, Türkiyədə sufi təriqətlərinin fəaliyyəti qadağan edildiyi üçün nurçuluğun banisinin təqiblərə məruz qalmamaqdan ötrü bu təlimin bir təriqət və məzhəb olmadığında israr etdiyini bildirir[13].

Rusiyalı tədqiqatçı O.İ.Jiqalina da nurçuluğun nəqşbəndiyyə təriqəti əsasında yarandığını bildirir. O bildirir ki, "XX əsrdə nəqşbəndi təriqəti ideyalarının inkişafı əsasında kürd bölgələrində yeni müsəlman təriqətləri – İranda haqqə, türkiyədə nurçular təriqəti yarandı"[14].

Tətdiqatçı alim C.S.Trimingem də nurçuluğu nəqşbəndiyyə sufi təriqəti ilə əlaqələndirir və qeyd edir ki, "Hazırda Şərqi Türkiyədə nəqşbəndiyyə qrupu mövcuddur – bu, əsası kürd əsilli

[11] *Гасанова, Э.Ю, Лаицизм и ислам в республиканской Турции, Нурлан, 2002, Баку, s:155.*
[12] *İskəndərli, Cabir, Azərbaycanda qeyri-ənənəvi dinlər və təriqətlər, Apostroff, 2011, Bakı, s:48.*
[13] *Məmmədova, Kəmalə. Nurçuluq: tarixi və müasir durumu, Əbilov, Zeynalov və oğulları, 2003, Bakı, s:77-78.*
[14] *Жигалина, О.И. Некоторые особенности социорелигиозных процессов в Иранском Курдистане /80-е годы/. Ислам и социальные структуры стран Ближнего и Среднего Востока, Наука, 1990, Москва, s: 210.*

ISSN:2148-2292.


Səid Nursi (1870-1960) tərəfindən qoyulmuş nurçu, yaxud nurçular, "nur tərəfdarları" qrupudur"[15].

Azərbaycanlı tədqiqatçı K.Məmmədova Səid Nursinin öz əsərlərində, müxtəlif məhkəmələrdəki çıxışında özünün heç bir təriqət, yaxud qadağan olunmuş bir məzhəblə əlaqəsi olmadığını dəfələrlə vurğuladığını bildirir. Sonra o qeyd edir: "Beləliklə deyə bilərik ki, nurçuluq nəqşbəndiyyə və qadiriyyə təriqətlərinin içərisindən çıxmış dini cəmiyyətdir"[16].

Səid Nursini zəmanəsinin digər alimlərindən fərqləndirən əsas cəhətlərdən biri də onun Qurani-Kərimi özünə xas üslubda şərh etməsidir. Bu yanaşma onun bütün əsərlərində özünü açıq göstərir.

Nurçuluq təşkilatlanma və geniş maliyyə imkanlarına malik olma baxımından da digər İslam cərəyanlarından fərqlənir. Bu təlimin ardıcılları təkcə təbliğatla deyil, eyni zamanda geniş tikinti, sənaye, istehsal, idxalat və ixracat işləri ilə məşğul olurlar.

Nurçuluğun İslam cərəyanlarından digər əsas fərqi təbliğatın əsasən bilikli, ali təhsilli və intellekti yüksək insanlar arasında aparılmasıdır. Onlar əqli cəhətdən daha çox inkişaf etmiş, yüksək intellektə malik tələbələri ətraflarına toplamağa çalışırlar. Bu təlimin üzvləri arasında biliksiz və intellekti zəif olan insanlar olduqca azdır. Nurçuluğa xass əsas xüsusiyyətlərdən biri də öz fəaliyyətlərində mənəvi dəyərlərə və əxlaq normalarına əməl olunmasını ön plana çəkmələridir.

### c-Nurçuluğun keçmiş sovet respublikalarında yayılması

SSRİ dağıldıqdan sonra bir çox dini təlimlər kimi, nurçuluq da keçmiş sovet məkanında yaranmış ideya boşluğundan istifadə edərək aktiv dini təbliğata başlamış, bu təlimə aid dini təbliğat vasitələrini Moskvada, Tatarıstan və Şimali Qafqaz respublikalarında yaymağa çalışmışdır[17]

Hazırda keçmiş sovet məkanındakı müsəlman respublikalarının əksəriyyətində bu cərəyanın çoxlu ardıcılı vardır. 1990-cı ilin əvvəllərindən başlayaraq nurçular davamlı olaraq təbliğat məqsədilə Türkiyə-Gürcüstan sərhədini keçərək Batumi, Tbilisi, Kazan, Gəncə, Bakı, və digər keçmiş Sovet İttifaqı şəhərlərinə səfərlər etmişlər. Onlar özləri ilə bərabər dini məzmunlu ədəbiyyat və audio-video materiallar gətirərək təbliğat vasitəsi kimi getdikləri bölgələrin

[15] *Тримингэм, Дж. С, Суфийские ордены в исламе. Перевод с английского под редакцией и с предисловием О.Ф. Акимушкина, Наука, 1989, Москва, s: 252.*
[16] *Məmmədova, Kəmalə. Nurçuluq: tarixi və müasir durumu, Əbilov, Zeynalov və oğulları, 2003, Bakı, s:78, 83.*
[17] *Məmmədova, Kəmalə. Nurçuluq: tarixi və müasir durumu, Əbilov, Zeynalov və oğulları, 2003, Bakı, s:7.*

əhalisinə paylamışlar. Növbəti illərdə bu səfərlər Orta Asiya Respublikalarından Özbəkistan, Qazaxıstan, Tacikistanı da əhatə etmişdir. Müəyyən müddətdən sonra bu səylər Rusiyanın müsəlman türklər yaşayan digər ərazilərində də müşahidə olunmağa başlamışdır. Bu təlimin ardıcıllarının təsis etdiyi *"Zaman"* qəzeti həftəlik olaraq kütləvi tirajla rus dilində Moskva, Kazan, Ufa və Rusiyanın digər böyük şəhərlərində yayılmağa başlamışdır. Həmin qəzetdə Fətulla Gülən barədə davamlı yazılar dərc olunur, onun fikirləri və ideyaları təbliğ edilirdi.

Sonrakı dövrlərdə Rusiya mətbu orqanları tez-tez Türkiyəyə aid xeyriyyə fondlarını, o cümlədən dini təbliğatla məşğul olan təşkilatları bu ölkədə separatizmi yaymaqda ittiham edən məqalələr dərc etməyə başladı. Həmin yazılarda gənclərin Tatarıstan, Başkırdıstan, Dağıstan, Çuvaşiya, Qaraçay-Çərkəs, Yakutiya, Tuv və Hakasiyadakı təhsil müəssisələrində türkçülük əhval-ruhiyyəsində təlim-tərbiyə aldıqları vurğulanırdı. O dövrün mətbu orqanlarının məlumatına əsasən həmin dövrlər Rusiya əleyhinə təbliğata görə Dağıstan Respublikasından 14, Qaraçay-Çərkəz respublikasından 10 nəfər Türkiyə vətəndaşı deportasiya olunmuşdur[18].

## d-Nurçuluğun Azərbaycanda yayılması və müasir durumu

Türkiyə, Rusiya, Amerika, Avstraliya kimi ölkələrlə yanaşı, nurçuluq Azərbaycanda da özünə ardıcıllar qazanmışdır[19]. Azərbaycan müstəqilliyini bərpa etdiyi ilk illərdən nurçuluq Bakı, Sumqayıt və Şəki şəhərlərində, Qəbələ, Oğuz, Göyçay, Ağdaş rayonlarında və digər bölgələrdə yayılmağa başlamışdır. Hazırda bu təlimin Azərbaycanın əksər rayon və şəhərlərində ardıcılı vardır. Aparılan aktiv dini təbliğat nəticəsində nurçuluq hazırda Azərbaycanda geniş yayılan dini təlim və cərəyanlar arasında ilk yerlərdən birini tutur[20]. Nurçuluğun ölkəmizdə, eləcə də keçmiş sovet respublikalarında güclənməyə çalışması ilə bağlı ayrı-ayrı vaxtlarda Azərbaycanın yüksək vəzifəli dövlət məmurları müxtəlif bəyanatlar səsləndirmişlər[21].

Nurçuluğun Azərbaycanda geniş yayılmasını Azərbaycanlı ekspertlər bir sıra amillərlə əlaqələndirirlər. Onların fikrincə sözügedən təlimin Azərbaycanda geniş yayılmasının əsas səbəblərindən biri ölkədə dini ənənənin və insanların dini biliklərinin zəif olmasıdır. Eyni zamanda nurçuların təbliğatlarını fərqli şəkildə, əhatəli və aktiv aparmaları da bu prosesə öz təsirini göstərir[22].

---

[18] *Киреев Н.Г. История Турции XX век, Москва, Крафт + , 2007.*

[19] *http://az.islam.az/article/a-624.html*

[20] *Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bülleteni. № 2, 2002.*

[21] *http://az.trend.az/azerbaijan/politics/2264005.html*

[22] *http://www.aznews.az/index.php?c=news&id=50624*

Nurçular Azərbaycanda bir çox istiqamətlərdə, xüsusilə orta və ali təhsil sahəsində ciddi uğurlar əldə etmişlər. Türk liseylərindəki və Qafqaz universitetindəki təhsilin səviyyəsi bu fikri təsdiqləyir. Hazırda ali təhsil müəssisələri arasında Qafqaz Universitetinin xüsusi yeri və çəkisi vardır. Qafqaz Universitetində təhsilin səviyyəsi digər özəl təhsil müəssisələri ilə müqayisədə yüksək olduğundan ölkə vətəndaşlarının bir qismi ali təhsil üçün bu universiteti seçirlər.

Nurçuluğun Azərbaycanda yayılması və gənc nəsli ətrafına toplaması günümüzün reallığıdır. Gələcəkdə bu cərəyanın ölkə üçün yarada biləcəyi təhlükələrə gəldikdə qeyd etmək lazımdır ki, nurçular radikallığa meylli deyillər və Azərbaycan cəmiyyəti üçün problemi yalnız nurçuluğun Azərbaycanda ideoloji, maddi cəhətdən möhkəmlənməsi və hakimiyyətə iddialı olması cəhdləri yarada bilər. Hazırda cərəyanın əsas məqsədi Azərbaycanda maddi və mənəvi baxımdan möhkəmlənmək, ətrafına daha çox gənci toplamaq və sıralarını daha da gücləndirməkdır.

Nurçuluğun Azərbaycanda yayılmasına qadağa qoyulması məsələsinə gəlincə, bu təriqətin üzvləri fəaliyyətlərini bir çox hallarda qanunun tələblərini pozmadan, yaşadıqları ölkələrin qayda-qanunlarına uyğun qururlar. Bu isə onlara qarşı qanunvericilik çərçivəsində mübarizə aparılmasında və fəaliyyətlərinin qarşısını alınmasında müəyyən çətinliklər yaradır. Ancaq bütün hallarda dövlət qurumları ölkədəki dini cərəyanların, o cümlədən nurçuların fəaliyyətini daim diqqətdə saxlayır, qanunazidd əməllər aşkarlandığı təqdirdə zəruri tədbirlər həyata keçirir.

ISSN:2148-2292.


## NETİCE

Yuxarıda qeyd olunan fikirlərdən də göründüyü kimi, əsası Səid Nursi tərəfindən qoyulmuş nurçuluq təlimi qısa müddətdə Türkiyədə, eləcə də bir sıra müsəlman ölkələrində geniş yayılmağa və ətrafına çoxlu sayda insanı toplamağa müvəffəq olmuşdur. Hazırda bəzi ölkələrdə nurçuluğun yayılmasına və təbliğinə müəyyən məhdudiyyətlər tətbiq edilsə də sözügedən təlimin tamamilə zəiflədiyini söyləmək çətindir. Ümumi hadisələrin gedişatı getdikcə nurçuluğa məhdudiyyət və qadağa tətbiq edən ölkələrin sayının artacağını göstərir.

## QAYNAQLAR

1. *Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bülleteni.* 2002, № 2,

2. Cabir, İskəndərli, 2011, *Azərbaycanda qeyri-ənənəvi dinlər və təriqətlər*, Apostroff, Bakı.

3. Э.Ю, Гасанова, 2006, *Социология Религии и мусульманского мистицизма* – тасаввуфа в Турции XX в., Əli nəşriyyat evi, Баку.

4. Gölpinarlı, Abdulbaki, 1991, *100 soruda Türkiyede mezhebler ve tarikatlar*, Kum.

5. Э.Ю, Гасанова, 2002, *Лаицизм и ислам в республиканской Турции, Нурлан*, Баку.

6. О.И, Жигалина, 1990, *Некоторые особенности социорелигиозных процессов в Иранском Курдистане* /80-е годы/. Ислам и социальные структуры стран Ближнего и Среднего Востока, Наука, Москва.

7. Дж. С., Тримингэм, 1989, *Суфийские ордены в исламе. Перевод с английского под редакцией и с предисловием О.Ф.* Акимушкина, Наука, Москва.

8. Н.Г., Киреев, 2007, *История Турции XX век*, Крафт +, Москва.

9. http://az.islam.az/article/a-624.html

10. Kəmalə, Məmmədova, 2003, *Nurçuluq: tarixi və müasir durumu*, Əbilov, Zeynalov və oğulları, Bakı.

11. *http://az.trend.az/azerbaijan/politics/2264005.html*

12. *http://www.aznews.az/index.php?c=news&id=50624*

ISSN:2148-2292.